♦ Zəfər fədailəri

Cavidin zəfər həmləsi

Polkovnik-leytenant Cavid Fərhadovun çətin sınaqlarla dolu, ölümlə dəfələrlə üzləşdiyi qələbə təntənəli savaş gündəliyi

Son baharın qış təbiətli noyabr ayı idi. Havadan zəhrimar tökülür, şaxta iliklərə işləyirdi. Göy üzünü tamamilə tutmuş buludların Yer üzünə bürüdüyü zülmət örtüyünü çaxan şimşək, bir də ətrafa ölüm saçan silahların işığı yarırdı.

Qrad, top, minaatanlardan açılan mərmilər sağdan-soldan şığıyaraq gah uzaqda, gah da lap yaxınlıqda partlalayır, havada uçuşan qəlpələr torpağa, çox zaman isə döyüşçülərin bədənlərinə sancılıb qalırdı... Su yerinə axan qanın yaratdığı gölməçələr durmadan artırdı...

Zaman 2020-ci il noyabrın 9-u, məkan isə Xocavənd şəhərinin bir addımlığıydı...

Kürəyindən və ayağından yaralı olan döyüşçünü indi bu şəhərdən sadəcə qarşıdakı yüksəklik ayırırdı. Yaralarının ağrısına, güllə yağışı altında olmasına baxmayaraq, irəli şığıyır, şəhərin düşmən tapdağından azad edilməsinə can atırdı...

Düz bir aydan artıq idi ki, döyüşə atılmışdı, bura gələnə qədər çiyin-çiyinə döyüşdüyü yoldaşları ilə birlikdə çox yurdlarımızı düşmən tapdağından azad etmişdi, indi isə növbə Xocavəndin idi... Bayraq Günündə müqəddəs bayrağımızı Xocavənddə dalğalandırmaqla xalqımıza bayram hədiyyəsi ərmağan etmək istəyirdi...

Amma qəfildən yanında partlayan top mərmisindən qarın boşluğuna saplanan qəlpənin ağrısı ilə sarsılmış, yarasından bulaq kimi axan qanı görəndə isə dəhşətlə düşünmüşdü ki, buradan o yana getməyə ömrü vəfa etməyəcək... Sona qədər döyüşmək, Qələbə anını yaşamaq ona qismət olmayacaq...

Yaralı döyüşçü daha bilmirdi ki, müharibənin son günüdür və hələ ömür payında Zəfər xəbərini eşitmək, sevincdən göz yaşlarına boğulmaq, bu günləri görmədən haqqa qovuşan yoldaşlarının ömürlük ürəyində yuva salmış qəhərindən hönkür-hönkür ağlamaq, onların qisasını almağın qürur hissi də var...

"Cənab komandir, təbrik edirəm, Qələbə qazandıq!"

"Vəziyyətim ağır idi. Əsgərlər məni döyüş yerindən çıxararaq düşməndən azad etdiyimiz hərbi hissəyə apardılar. Oradan rabitə ilə hərbi həkimlə əlaqə saxlayaraq gəlib məni götürməsini söylədim. Hərbi tibb maşınında huşumu itirdiyim üçün sonra nələrin baş verdiyini bilmədim. Bir də gözümü açdım ki, gur işıqların yandığı boş bir otaqdayam. Uzaqdan yaxşı ayırd edə bilmədiyim səslər gəlirdi. Birdən lap yaxından bir nəfər sevinclə dedi ki, "cənab komandir, təbrik edirəm, Qələbə qazanmışıq! Müharibə bitib". Bura Əhmədbəyli hospitalı, şad xəbəri verən isə məni əməlyyat edən həkim idi".

Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant Cavid Fərhadovdur "Zəfər fədailəri" rubrikasının qonağı...

Biz adətən elə bilirik ki, düşmənin külünü göyə sovuran, onları qarşılarında diz çökdürən, yalın əllə nəfəslərini kəsən qədd-qamətli, pəhləvan cüssəli oğullarımız sərt xarakterlidirlər. Heç zaman kövrəldiklərini, gözlərinin nəmləndiyini görə bilmərik... Amma polkovnik-leytenant Cavid Fərhadovun çətin sınaqlarla dolu və ölümlə dəfələrlə burun-buruna gəldiyi qələbə təntənəli döyüş gündəliyini vərəqləyərkən şəhid yoldaşlarını anıb necə kövrəldiyinə, göz yaşlarına hakim ola bilmədiyinə şahidlik etməyimiz əsl gerçəkliyi anlamağa kifayət etdi ki, əslində, onların bu sərt mizaclarının arxasında olduqca yuxa, həssas, kövrək ürəklər dayanır...

"Başlarını dizimin üstünə qoyub son vəsiyyətlərini edən, məndən qisaslarını alacaqlarıma dair söz alan, gözlərimin önündə düşmən mərmisinin parça-tikə etdiyi döyüşçülərim heç zaman yadımdan çıxmır. Döyüşlərdə həmyerlim, silah yoldaşım, sağ əlim, qardaşım, qərargah rəisim Nəcəf Şikarov qəhrəmanlıqla şəhid oldu. Bilirsiniz, bütün bunları yaşamaq, bu itkilərə dözmək üçün insan daş olsun gərək. Tək təsəllimiz şəhidlik zirvəsinə ucalan igid döyüşçülərimizin qisasının layiqincə alınmasıdır..."

Xidmət yolu

Ehtiyatda olan polkovnik-leytenant Cavid Fərhadov 1978-ci il yanvarın 7-də Bakıda anadan olub. 185 nömrəli orta məktəbin məzunudur. 1992-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub, 1995-ci ildə hərbi təhsilini Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin Ümumqoşun fakültəsində davam etdirib.

O, 1999-cu ildə Gədəbəy rayonundakı "N" saylı hərbi hissədə leytenant hərbi rütbəsində taqım komandiri vəzifəsində xidmətə başlayıb. Müxtəlif dövrlərdə Gədəbəy, Gəncə, Tovuz, Göygöl, Tərtər rayonlarında, Murovdağ yüksəkliyində bölük komandiri, tabor komandirinin müavini, taborun qərargah rəisi və tabor komandiri olub.

2016-cı ilin Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısıdır. Vətən müharibəsində Füzuli, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib.

O, ikinci qrup müharibə əlilidir.

Hazırda Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatında yaradılmış Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsində çalışır.

"İgidliyə görə", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10, 90, 95, 100 illik "Yubiley", 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib. Ailəlidir, 4 övladı var.

"İrəliyə atdığımız hər addım azad olunmuş torpaq demək idi"

Cavid Fərhadov danışır ki, ailəsi həkim olmasını istəsə də, 1992-ci ildə ermənilərin Xocalıda törətdiyi soyqırımı hadisəsi onun fikrini dəyişdirir və hərbçi olmağa qəti qərar verir. 15 yaşındaykən valideynlərinin xəbəri olmadan imtahan verərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olur. O gündən etibarən düşməndən qisas almaq, torpaqlarımızı azad etmək arzusu ilə yaşayır:

- 20 ildən çox idi ki, hərbi xidmət keçirdim, amma ilk dəfə 2016-cı ilin aprelində tapşırıq aldım ki, torpaqlarımızın işğaldan azad edilməsi üçün əməliyyat keçirəcəyik. İllər idi ki, bu əmri gözləyirdik. Həmin vaxt Tərtər rayonundakı "N" saylı hərbi hissədə tabor komandiri idim. Taborumla birlikdə Aprel döyüşlərində iştirak etdim. Bu, təsvirəgəlməz hiss idi. Düşünün ki, irəliyə doğru atdığımız hər addım xalqımız üçün azad olunmuş torpaq demək idi. Həmin zaman lazım olan tapşırığı yüksək səviyyədə yerinə yetirdik. Amma əməliyyatlar məhdud çərçivədə idi deyə bir müddət sonra dayandıq. Dayanmaqla bağlı tapşırıq alanda, sözün düzü, bütün döyüşçülər pis oldu. Biz işğal altında olan bütün ərazilərimizi azad etmək istəyirdik. Amma bu istəyimizə 4 ildən sonra - 2020-ci ildə çatdıq.

"Polad Həşimov mənim üçün qəhrəmandan əlavə örnək insan idi"

- Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olması xəbəri hər birimizi dərindən kədərləndirdi və qisas hissimizi coşduran, səbrimizi daşıran son damla oldu.

Birinci Ordu Korpusunda xidmət edəndə Polad Həşimov komandirim olub. 2016-cı ildə də onun tabeçiliyində olan bir bölmənin komandiri idim. O, hər zaman bölmələrimizi yoxlamağa gəlirdi, döyüş hazırlığını yoxlayırdı, təlimlərdə iştirak edirdi. Hərtərəfli insan olan Polad Həşimov mənim üçün qəhrəmandan əlavə örnək idi. Hərbi xidmətim boyu çalışmışam ki, onun kimi bir zabit olum. Polad Həşimovun şəhadət xəbərini eşidəndə gözlərimdən yaş axdı. Ona böyük sayğım var idi. Tək mənim yox, Azərbaycan Silahlı Qüvvələrində onu tanıyan, haqqında eşidən hər bir gizir, zabit heyətinin ona böyük hörməti var idi. Cənab generalın ölümü hər kəsə pis təsir etdi. Amma tabeliyindəki döyüşçülərlə çiyin-çiyinə düşmənə qarşı səngərdə döyüşüb qəhrəmancasına şəhid olması ilə Polad Həşimov yenə də hər birimiz üçün örnək şəxsiyyətə çevrildi.

2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin "İrəli" əmri ilə Qarabağ uğrunda döyüşə yollanmaq hər birimizdə bayram əhvalı yaratdı. Reallıqda müharibənin, döyüşün başlaması insanlar üçün kədərli olmalıdır. Çünki ucunda ölüm-itim də var. Ancaq bu xəbər yüksəkrütbəli zabitindən tutmuş sıravi əsgərinə qədər Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətində toy-büsat kimi sevinclə qarşılandı. Çünki işğal altında olan torpaqlarımızı azad etməyə, şəhidlərimizin qisasını almağa gedirdik.

Aprel döyüşlərinə, Vətən müharibəsinə qədər də xidməti tapşırıq zamanı zabitlərim, əsgərlərim şəhid olub, onların bir çoxu son vəsiyyətini mənə edib gözünü yummuşdu. Elə Vətən müharibəsində də. Qəribə idi ki, indiyə qədər heç bir zabitimdən, əsgərimdən "evimizdən muğayat ol", "doğmalarımı sənə tapşırıram" kimi sözlər eşitməmişəm. Onlar hamısı deyirdi ki, "komandir, bizim qisasımızı alarsan".

Xidməti müddətimdə də hər zaman düşünürdüm ki, əgər qisaslarını almasaq, o dünyada şəhidlərin üzünə necə baxarıq? Bu mənəvi yüklə yaşamaq çox çətin idi... Şükürlər olsun ki, döyüşərək, qisasımızı alaraq o torpaqlara qayıtdıq...

Döyüş yolu

- Müharibə başlayanda Bakıda idim. Yalnız oktyabrın 7-də döyüşlərə qatıldım. Həmin 10 gün həyatımdakı ən çətin günlərdən olub. Nə gecəm var idi, nə gündüzüm. Axşamlar yatmaq vaxtı gələndə başımı yastığa qoyan kimi gözümün önünə döyüşdəki zabit və əsgərlərimizin çəkdikləri əziyyətlər gəlirdi və bunları fikirləşdikcə yata bilmirdim. Səhər açılan kimi hərbi komissarlığa müraciət edirdim. Deyirdilər ki, "hələlik sənə ehtiyac yoxdur". Amma evdə qala bilmirdim. Həmin dövrdə nə ailəm, nə övladlarım haqqında fikirləşmirdim. Düşündüyüm ancaq müharibəyə getmək idi. Nəhayət, oktyabrın 7-də hərbi komissar zəng vurub dedi ki, "təcili gəl, döyüşə gedirsən".

Ailəmlə, uşaqlarımla görüşüb (o zaman böyük övladımın 15, kiçiyinin 2 yaşı var idi) axşamdan yola düşdüm. Məni Əlahiddə Əməliyyat hərbi hissəsinə ("Həmlə" taboru) komandir təyin etdilər. Əvvəlcə komandiri olduğum hərbi hissə Xüsusi Təyinatlı Qüvvələrin sərəncamına verildi və Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə komandanlığın əmr və göstərişlərini yerinə yetirməyə başladıq. Komandiri olduğum hərbi hissənin ("Həmlə" taborunun) vəzifəsi düşmənin ön xəttini yarmaq, strateji yüksəkliklərin ələ keçirilməsi və arxadan gələn bölmələrimizə yol açmaqdan ibarət idi. Tabeçiliyimdə olan bölmələrlə ilk olaraq Füzuli istiqamətində irəliləməyə başladıq.

2020-ci il oktyabrın 20-də komandiri olduğum hərbi hissə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlılarının sərəncamına verildi və onlarla birlikdə Məngələnata yüksəkliyindən hücum əməliyyatına başladıq. Yuxarı Yağlıvənd, Dilağarda, Yuxarı Veysəlli və bir çox strateji yüksəkliyin, hərbi obyektlərin azad olunmasında iştirak etdik.

Aktiv döyüş əməliyyatlarına Füzuli rayonunun Dilağarda kəndinin azad olunmasından başladıq və qısa zamanda həmin kəndi düşməndən azad etdik. İlk yaralanmağım da həmin kəndin azad edilməsi vaxtı oldu. Yaxınlığımıza düşən top mərmisinin qəlpələri mənim sol kürək nahiyəmdən yaralanmağıma, müavinim kapitan Şikarov Nəcəf Şikar oğlununsa hər iki ayağından qəlpə yarası almasına səbəb oldu.

Yaralanmağımıza baxmayaraq, düşmənlə çox yaxın məsafədə olduğumuza görə heç ilkin tibbi yardım göstərilməsinə belə vaxt olmadığından yaralı-yaralı hər ikimiz kəndin girişindəki yüksəkliyə çıxaraq düşmənin səngərinə girdik və bir neçə düşmən əsgərini məhv edib kəndin mühafizəsi üçün qazılmış mövqeni ələ keçirdik. Həmin yüksəklikdən kəndin aşağı hissəsində yerləşən düşmənin artilleriya batareyasına ələ keçirdiyimiz mövqelərdə ermənilərin qoyub qaçdıqları silahlardan atəş açaraq onların bir çoxunun məhv edilməsinə, qalanlarınsa qaçmasına nail olduq. Dilağarda kəndi azad edildikdə düşmənin dörd ədəd KamAZ, üç ədəd QAZ 3308, bir ədəd UAZ, bir ədəd "2S1 Qaubitsa", bir ədəd zirehli transportyor, çox sayda TƏİR kompleksini və silah-sursatlarını qənimət olaraq ələ keçirdik. Həmin texnikaları düşmənin özünə qarşı döyüşlərdə istifadə etdik.

Ara sakitləşəndə Nəcəfi güc-bəla razı salıb hospitala göndərdim. Amma o yarasının birindən qəlpə çıxarılmadan qayıdıb yenidən döyüşə girdi. Sonra biz Xocavəndə qədər irəlilədik.

"O əsgərin ölümü gözlərimin önündən getmir"

- Ora qədər hər bir yüksəklik uğrunda döyüş getdi. Düşmən hər yüksəklikdə müdafiə qurğuları qurmuşdu. Biz döyüşə-döyüşə yaxınlaşdıqca onlar görürdülər ki, qarşımızı kəsə bilmirlər, qaçıb arxadakı yüksəkliklərdə mövqelənib yenidən döyüşə başlayırdılar. Hər yüksəklik, hər təpə uğrunda gedən döyüşlərdə əsgərlərim, zabitlərim şəhid olurdular...

Döyüşlərdə gözlərimin qarşısından indi də getməyən o qədər təsirli hadisələr oldu ki... Dilağarda kəndini azad edəndən sonra onun yaxınlığındakı yüksəkliyi aldıq və səngəri təmizlədik. Düşmən isə arxaya qaçdı. Bilirdim ki, onlarda səngərin koordinatları var. Buna görə tabeçiliyimdə olan qrupa tapşırıq verdim ki, hamı təpənin artilleriya vura bilməyəcəyi hissəyə çəkilsin. Bu vaxt gözlədiyim kimi düşmən qarşı tərəfdən tankla birbaşa səngərin içini vurdu. Arxaya çevrilib baxanda gördüm ki, səhra çantasının içərisindəki paltarlar göyə qalxıb yerə səpələndi. Dedim ki, "kiminsə səhra çantası səngərdə qalıb. Mərmi düz onun üstünə düşdü". Amma döyüşçülər kədərlə dedilər ki, o, bizim əsgərimiz idi, yubanıb çıxa bilməmişdi... Düşməni məhv edəndən sonra həmin əsgərin bədən üzvlərini parça-parça ətrafdan tapıb sursat yeşiyinə yığdıq...

Mənfur düşmən Tank Əleyhinə İdarəolunan Raketlərdən də canlı qüvvələrimizə, hətta tək bir əsgərə qarşı belə istifadə edirdi. Raket mərmisi ilə gözümün qarşısında bir əsgərimi də şəhid etdilər.

Bunları görmək, yaşamaq çox ağır idi...

"Qərargahda düşmənin bayrağını endirib öz bayrağımızı ucaltdıq"

- Əldə etdiyimiz yüksəkliklərdən Xocavənd rayonunun yaxınlığında, Füzuli-Xocavənd magistral yolunun solunda düşmənə məxsus alayın yerləşmə yerini müşahidə etdik. Bizimlə həmin alay arasında düşmən iki bölüyə qədər qüvvəsi ilə yüksəkliklərdə müdafiə olunurdu. Qərara gəldik ki, bu yüksəkliklərin hər biri uğrunda döyüşərək yaralı və şəhid verməkdənsə, ərazinin relyefindən istifadə edib yarğanlarla irəliləyərək həmin alayın yerləşdiyi yeri ələ keçirməyə cəhd edək. Bu yolla düşməndə mühasirəyə düşmə xofu yaradılsa, çox ehtimal ki, həmin yüksəklikləri qoyub qaçacaqdı. Elə də etdik: iki qrupla - bir qrupda rəhbər mən, digər qrupda kapitan Nəcəf Şikarov olmaqla həmin alayın yerləşdiyi yerə hücum etdik. Alaya yaxınlaşdıqdan sonra ilk öncə yaxınlıqdakı yüksəkliyi ələ keçirərək irəlilədik və yolun yaxınlığında qaçmaqda olan düşmənin artilleriya batareyasının şəxsi heyətini zərərsizləşdirib alaya daxil olduq.

Alay çox böyük əraziyə malik olduğu üçün düşməndən təmizlənməsi xeyli vaxt apardı. Bir qrupla kazarmalar, qərargah, yeməkxana və başqa binalarda, digər qrupla isə hərbi şəhərciyə aid binalar və məktəb binasında yoxlanışlar keçirildi.

Noyabrın 2-də qərargahda düşmənin bayrağını endirib öz bayrağımızı ucaltdıq. Alayın azad olunması vaxtı mən növbəti dəfə sol ayaq nahiyəmdən yaralandım. Bu mənim ikinci yaralanmağım idi. Tapşırığı axıra qədər yerinə yetirdikdən sonra ilkin tibbi yardım göstərilərək qanaxma dayandırıldı. Yuxarı komandanlığa yaralanmağımı məruzə etdim. Yaralı olduğumu biləndə geri qayıtmağımı tələb etdilər, amma əmrə tabe olmadım. Bilirdim ki, qarşıda daha ağır tapşırığımız var. Mühüm bir yüksəkliyə doğru sızma əməliyyatı həyata keçirib dərinliyə doğru irəliləməli idik, şəxsi heyəti buraxıb geri qayıda bilməzdim...

Noyabrın 8-də Xocavənd rayonunda strateji yüksəkliyi ələ keçirmək barədə növbəti tapşırıq aldıq. Bu yüksəklik həm də düşmənin komanda məntəqəsi idi. Oradan həmin istiqamətdə gedən bütün döyüşlər idarə olunurdu. Tamamən boz, sipər olaraq istifadə etməyə nə bir ağac və daş parçası belə olmayan yüksəkliyə günün günorta çağı hücum etdik. Mən də, müavinim Nəcəf Şikarov da yaralı idi. Allahın köməyi, şəxsi heyətimizin yüksək fiziki hazırlığı, döyüş qabiliyyəti sayəsində düşmənin atəşi altında biz o yüksəkliyə doğru dayanmadan irəlilədik və oranı azad etdik.

"Nəcəf şəhid oldu, mən qazi..."

- Bu yüksəkliyin alınması zamanı qərargah rəisi Nəcəf Şikarov şəhid oldu. Hücum zamanı Nəcəf hamıdan qabaqda gedirdi, elə bil ölümə tələsirdi. Nə qədər deyirdim ki, "tələsmə, yaralısan", o qulaq asmırdı. Elə düşmən səngərinə birinci girən də Nəcəf oldu. Həmin gün axşamüstü düşmənin şiddətli əks-hücumları başladı. Onlar tanklarla, BMP-lərlə hücuma keçdilər. Həmin vaxt tapşırıq vermək istəyəndə gördüm ki, Nəcəf yoxdur. Heç kim onun yerini bilmirdi. Yüksəklikdəki səngərin uzunluğu hardasa 1 kilometr idi. Düşündüm ki, yəqin səngərin digər başındadır. Düşmənin əks-hücumları dəf olunandan sonra mobil telefonu açdım ki, yuxarı komandanlıqla danışım (enerjisi bitməsin deyə ancaq lazım olanda telefonu yandırırdım. Bəzən rabitə olmayanda mobil telefonla yuxarı komandanlığa məruzə etməli olurdum). Bu zaman gördüm Nəcəfin zəng vurması barədə mənə sms gəlib. Sonradan onun nəşini tapanda gördük ki, Nəcəf yaralı olub və mənə zəng edib ki, yerini bildirsin. Amma həmin vaxt telefonum sönülü olduğu üçün onun yardımına gedə bilməmişəm... 4 il keçsə də, bu hadisənin təsirindən çıxa bilmirəm. Telefonu söndürdüyümə görə özümü çox qınayıram, amma görünür, Allahın qisməti belə imiş.

Hər ikimiz Qobustan rayonunun qonşu kəndlərindənik. Nəcəf Təklə, mən Ərəbşalbaş kəndindən. Babalarımız da 1918-ci ildə ermənilərə qarşı birlikdə döyüşmüşdülər. O hadisələrdən sonra sovet hakimiyyəti onların hər ikisini Sibirə sürgün etmişdi. Sonradan bəraət almışdılar. Üzərindən 100 il keçdikdən sonra onların nəvələri olaraq biz yenə bir yerdə düşmənə qarşı döyüşdük. Nəcəfə şəhidlik nəsib oldu, mənə qazilik...

"Haqqınızı halal edin, sizi ancaq bura qədər gətirə bildim"

- Noyabrın 9-da tapşırıq gəldi ki, Xocavənd rayonunun mərkəzinə doğru irəliləməliyik. Şəhərin girişində olan yüksəkliyə doğru irəlilədik. Düşmən bizi ağır artilleriya atəşinə tuturdu. Top mərmisi çox yaxınlığıma düşdü və qarın boşluğumdan yaralandım. Qəlpə daxili orqanlarımı parçalamışdı. Hiss edirdim ki, artıq bu, sondur, çünki qanaxmanı dayandıra bilmirdim. Ayaqda, qolda olan yaranı sarımaqla qanaxmanı dayandırmaq olur. Amma qarın boşluğundakı yaranın qanaxmasını saxlamaq qeyri-mümkündür. Yenə də heç kimə demədim. Bir qədər irəlilədə hiss etdim ki, qanaxmadan başım fırlanır hərəkət edə bilmirəm. Çəkmələrimin içi qanla dolmuşdu. Fikirləşdim ki, şəxsi heyəti bu vəziyyətimdə döyüşə apara bilməyəcəyəm və tapşırıq yarımçıq qalacaq. Rəhbərliyə məruzə etdim.

Başım gicəllənir, yaralarımın üçü də dözülməz dərəcədə ağrıyır, nəfəsim kəsilirdi... Birtəhər özümü ələ alıb övladlarım qədər sevdiyim döyüşçülərimlə vidalaşdım. Dedim "uşaqlar, haqqınızı halal edin, artıq yollarımız ayrılır, sizi ancaq bura qədər gətirə bildim, daha buradan o yana gedə bilmirəm... Hamının gözündən yaş axırdı... Həmin an nə özümü, nə ailəmi, nə övladlarımı düşünürdüm... Döyüşə-döyüşə, qanımla torpağı suvara-suvara bu qədər məsafəni gəlib yarıda dayanmaq mənə ölümdən betər gəlirdi. Elə bilirdim ki, döyüş mənsiz davam edəcək, qisasımı axıracan ala bilməyəcəm...

"O gün Tehran Mənsimov məni ölümdən qurtardı"

- Vətən müharibəsində cəsur, mərd, qorxmaz, döyüş əməliyyatları vaxtı yüksəkrütbəli zabit olmağına baxmayaraq, əsgərləri ilə birlikdə ön sıralarda, ən təhlükəli istiqamətlərdə döyüşlərdə birbaşa iştirak edən əfsanəvi komandir, polkovnik Tehran Mənsimovla birlikdə, onun tabeçiliyində xidmət etdiyim üçün çox şanslıydım. Əldə etdiyimiz nailiyyətlərdə onun təcrübəsinin, cəsarətinin və hərb elmini dərindən bilməsinin böyük rolu oldu.

Füzulinin Yuxarı Yağlıvənd kəndi azad edilmişdi. Polkovnik Tehran Mənsimovla birlikdə kəndin yaxınlığındakı yüksəklikdə düşmənə hücum əməliyyatları yerinə yetirəcəyimiz ərazilərə baxıb planlaşdırma aparırdıq. Bu vaxt sol cinahdakı yüksəklikdən düşmən tank əleyhinə idarə olunan raketdən bizə tərəf atəş açdı (atəş açılanda 2-3 saniyə işıq görünür). Həmin vaxt cənab polkovnikin üzü düşmənə tərəf olduğu üçün həmin o işığı gördü və cəld məni səngərin içinə yıxdı. Çox az müddətdən sonra mərmi gəlib düz yarımmetrliyimizə düşdü. Əgər Tehran Mənsimovun peşəkar hərbçi sayıqlığı, cəldliyi olmasaydı, döyüş yolum elə orada bitəcəkdi. Cənab polkovnikin qəhrəmanlığı, uzaqgörənliyi, təcrübəsi məni ölümdən qurtardı.

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsəlləh əsgəriyəm"

- Bu yaxınlarda işğaldan azad edilən torpaqları ziyarət etdim. Son dəfə döyüşdüyüm yerə baş çəkdim. Xocavəndin 200-300 metrliyində yaralanmışdım. Bəlkə də orada yaralanmasaydım, Xocavənd rayonunu da döyüşərək azad edəcəkdik.

Kəlbəcərə, Laçına getdim. Həmin ərazilərə səfər edənlər adətən oradakı yüksəkliklərin, dağların möhtəşəmliyinə baxır. Ancaq mən o yüksəkliklərə baxanda hərbçi olaraq düşünürdüm ki, əgər Müzəffər Ali Baş Komandan İlham Əliyev düşməni kapitulyasiyaya məcbur etməsəydi, biz o dağları necə çətinliklə alacaqdıq. İtkilərimiz çox olacaqdı...

Tərtərdə xidmət edərkən illərlə Ağdərəyə doğru həsrətlə baxırdım, hirsdən az qalırdı ki, bağrım partlaya... İndi isə Ağdərədən Tərtərə sarı baxdım. Bütöv vətənimlə qürur duydum. Bizi bu xoşbəxtliyə Müzəffər Ali Baş Komandan İlham Əliyev çatdırdı. Qalib Lider İlham Əliyevin mükəmməl siyasəti sayəsində Azərbaycan zəfər ölkəsinə, xalqımız zəfər xalqına çevrildi. Bir vətəndaş, döyüşçü, qazi kimi bundan sonra da Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsəlləh əsgəriyəm.

"İndi biz Tanrının dərgahına, şəhidlərimizin yanına üzüağ gedəcəyik"

Bu oğullar, ayaqlarında hərbi çəkmə, başlarında dəmir dəbilqə, əllərində ağır silah, bellərində kilolarla yük, canlarında həftələrin yorğunluğu, yuxusuzluğu, aclığı, susuzluğu ola-ola dərələrdən keçdilər, təpələrdən aşdılar, sıldırımlardan dırmaşdılar, addım-addım, qarış-qarış azad etdilər vətən torpaqlarını. Bu uğurda kimisi gözünü, qolunu, qıçını itirdi... Kimisi də canını tapşırdı. Amma onların yarıda qırılan yolunu yerdə qalan qardaşları davam etdirərək sona - Zəfər anına qədər düşmənlə çarpışdılar. Bir gözləri ilə şəhid yoldaşlarına ağladılar, digəri ilə düşmənin ürəyini nişan aldılar: "Hər kənd, yaşayış məntəqəsi, yüksəklik azad edildikcə yaşadığımız qürur hissi bütün çətinliklərimizi unutdururdu. Hər düşmən əsgərini öldürəndə Xocalı soyqırımının, ana torpaq uğrunda şəhid olan bütün soydaşlarımızın intiqamını aldığımızı düşünürdük. Deyirlər, qisasda həyat var. Onilliklərdir qəlbimizdə daşıdığımız qisas missiyasını şərəflə axıra çatdırdıq. İndi biz Tanrının dərgahına, şəhidlərimizin yanına üzüağ gedəcəyik".

Yasəmən MUSAYEVA,
"Azərbaycan"